**UOT: 631.6.003 (551.48)**

**ASLANOV H.Q., SƏFƏROV A.X.**

*Azərbaycan Memarlıq və İnşaat Universiteti*

*anar.seferov.19@gmail.com*

# XƏZƏR DƏNİZİNDƏ SƏVİYYƏ DƏYİŞİKLİYİNİN AZƏRBAYCANIN SOSİAL-İQTISADI VƏ EKOLOJİ VƏZİYYƏTİNƏ TƏSİRİ

**Giriş.** Bütün tarixi dövrlərdə Xəzər dənizinin səviyyəsinin dinamikliyi ictimaiyyətin və alimlərin diqqətini cəlb edən əsas proseslərdən biri olmuşdur. Hazırda bu problemin müzakirə obyekti baxımından öyrənilməsi çox vacibdir. Aparılan tədqiqatlar nəticəsində alimlər bütün tarixi dövr ərzində Xəzər dənizinin səviyyəsinin tərəddüdünün əsasən təbii (iqlim, tektonik proseslər) və antropogen (insan fəaliyyəti nəticəsində yaranan təzadlar) təsirlərlə bağlı olduğunu izah etsələr də, lakin onlar bu hadisələrin sahilyanı zonanın landşaftına, kənd təsərrüfatı təyinatlı torpaq sahələrinə və vətandaşların məskunlaşmasına dəyən ziyanı daha ətraflı öyrənməmişlər. Sahil ərazilərində dəniz suyu səviyyəsinin yüksəlməsi daxili ərazilərə də mənfi təsir göstərir, yəni bu təsir qrunt sularının rejimində, ərazilərin bataqlaşmasında və şorlaşmasında, bir neçə invezsion və inteksion xəstəliklərin artmasında özünü göstərir.

Xəzərin səviyyəsinin çoxillik və ya mövsümi dəyişməsi daha çox sahil landşaftlarında müşahidə olunur. İstənilən istiqamətdə səviyyə dəyişməsi, eləcə də onun sabitliyi özünəməxsus landşaftların inkişafı üçün zəmin yaratmaqla bərabər, onun zəif komponentlərinin olduğu həmin landşaftlarda ətraf mühitin mənfi istiqamətdə dəyişmə riskini və sürətini əhəmiyyətli dərəcədə artırır. Bu cəhətdən Xəzər dənizinin sahilyanı rayonlarının zəif dayanaqlığı ilə xarakterizə olunan Cənub Şərqi Şirvanın yarımsəhra landşaft komplekslərinə xüsusi diqqət tələb edilir. Bu ərazilərin səthinin Xəzərin səviyyəsinə yaxın və düzənliklərdən ibarət olması buna zəmin yaratmışdır. Bu ərazidə və sahil landşaftlarında aparılan müşahidə tədqiqatları göstərir ki, dəniz səviyyəsinin tərəddüdü bitki örtüyü və səhralaşmanın indikatoru torpaqdır. Xəzər səviyyəsinin istənilən istiqamətdə tərəddüdü, ərazinin landşaftlarının bitki və torpaq komponentlərində indikatorlar şəklində özünü göstərir. Aşağıdakı cədvəldə sahil xəttinin quruya doğru hərəkətinin qiymətləri göstərilmişdir.

**Xəzər dənizinin sahil xəttinin 1978-2007-ci illərdə quruya doğru hərəkəti**

| Sıra sayı | Yerin adı | Sahilin quruya doğru gəlməsi, m |
|---|---|---|
| 1 | Neftçala | 45001 |
| 2 | Lənkəran | 39203 |
| 3 | Astara | 523 |
| 4 | Pirsaat | 395 |
| 5 | Ələt | 383 |
| 6 | Qaradağ | 370,1 |
| 7 | Hövsan | 364 |
| 8 | Sumqayıt | 350,4 |
| 9 | Qızıl Burun | 310 |
| 10 | Şabran | 270,2 |
| 11 | Nabran | 121 |

## Nəticə

1. 1978-ci ildən başlayaraq Xəzər dənizinin səviyyəsinin qalxması onun Azərbaycan sahillərində 250 sənaye müəssisəsinin, 50 yaşayış məntəqəsinin, 40 min ha-dan çox əkin sahəsinin, 60 km avtomobil və 10 km dəmir yolunun su altında qalmasına səbəb olmuşdur.
2. Xəzər sahillərində səhralaşma prosesinin artmasının həm təbii proseslər (iqlim dəyişmələri), həm də insanın təsərrüfat fəaliyyətinin təsiri ilə baş verdiyi müəyyənləşmişdir. Səhralaşma prosesinin qarşısının alınması üçün ən mühüm tədbirlər kimi həm təsərrüfat sahələrində ekoloji normativlərə əməl etmək, həm də fitomeliorativ tədbirlərin həyata keçirilməsi məqsədə uyğundur.

## Ədəbiyyat


1. Aslanov H.Q. Kürün aşağı axarının ekocoğrafi problemləri. Bakı, Caşıoğlu, 2013, 233 s;
2. Aslanov H.Q., Səlimova V.H. BQ su ehtiyatlarından istifadənin sosial-iqtisadi və ekoloji durumu. Bakı "Xəzər Universitetinin nəşriyyatı" 2018, 384 s;
3. Babaxanov N.A., Paşayev N.Ə. Təbii fəlakətlərin iqtisadi və sosial-coğrafi öyrənilməsi. Bakı, "Elm", 200, 212 s;
4. Namazov İ. Salyan düzünün suvarılan drenləşdirilmiş ərazilərində gedən hidrogeoloji proseslərin analizi və onların nizamlanması üsullarının işlənib hazırlanması. Coğrafiya elmləri namizədlik dissertasiyası. Bakı, 2000
5. Мамедов Р.М. Гидрометеорологическая изменчивость и эко-географические проблемы Каспийского моря. Баку, 2007, 437 с.


**UOT: 631.6.003 (551.48)**

**H.Q. Aslanov, A. X. Səfərov**

*Azərbaycan Memarlıq və İnşaat Universiteti*

**anar.seferov.19@gmail.com**

## Xəzər dənizində səviyyə dəyişikliyinin Azərbaycanın sosial-iqtisadi və ekoloji vəziyyətinə təsiri

## XÜLASƏ

Respublikamızda ekoloji şəraitdən doğan

narahatçılıq, ekoloji mühiti sağlamlaşdırmaq meyillərinin güclənməsi, təbii sərvət olan torpaq örtüyünün və su mənbələrimizin qorunub mühafizə edilməsi istiqamətində tədbirlərin həyata keçirilməsilə yanaşı, onların törətdiyi ekstrimal fəlakətlərin dağıdıcı təsirini düzgün proqnozlaşdırılıb qarşısının alınması kimi problemlərin də tədqinin ön plana çəkilməsini tələb edir.

Xəzər dənizinin Azərbaycan hissəsində məhsuldar qüvvələrin, kənd təsərrüfatı və sənaye sahələrinin artması dəniz səviyyəsinin dinamikliyi səbəbindən törənə biləcək ekoloji gərginliyi azaltmaq, buradakı regionaların iqtisadiyyatına dəyən zərəri minimuma endirmək kontekstində məsələlərin öyrənilməsi və bu istiqamətdə işlərin görülməsi dövrümüzün ən mühüm məsələləridəndir.

***Açar sözlər**: antropogen, landşaft, səhralaşma, mikroiqlim*

## ABSTRACT

The article examines the negative impact of the rise of the Caspian Sea level on the economy of coastal territories. They found that, according to the forecast, this could cause great damage in the future. The Azerbaijani coast of the Caspian Sea is rich in all the necessary natural and economic resources for the development of industry, agriculture and tourism in the region. The impact of changes in the Caspian Sea level on the socio-economic and ecological situation of Azerbaijan.

***Keywords.** anthropogenic, landscape, desertification, microclimate*

*Məqaləyə AzMİU-nun “Meliorasiya və su təsərrüfütı tikintisi” kafedrasının dosenti A.İ. Hacıyev rəy vermişdir.*